“Unibank Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti “Unicapital İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətində 100 (yüz) faiz paya malikdir. Bankın törəmə təsərrüfat cəmiyyəti olan “Unicapital İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti əsas və yardımçı investisiya xidmətlərini həyata keçirir.

“Unicapital İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilən əsas investisiya xidmətlərinə aşağıdakılar daxildir:

- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
- fərdi investorların portfelinin idarə edilməsi;
- investisiya məsləhətlərinin verilməsi;
- qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
- qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
- mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;
- marja ticarəti.

“Unicapital İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilən yardımçı investisiya xidmətlərinə aşağıdakılar daxildir:

- qiymətli kağızların hesabının idarə edilməsi, o cümlədən qiymətli kağızların və törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;
- investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;
- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;
- təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;
- əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.